

# Əruz gəzişmələri

**İlqar Fəhmi**

### Bir az yüngül, bir az ağır…

Adam başın qoyub ölə, saat iki tamam ola,
Fikirləri vəba tuta, xəyalları cüzam ola.
Nə Sartra əlin çata, nə Kamyunun qiyamına,
Əlində köhnə bir qəzəl, masanda bircə şam ola.
Ürəkdə bir qaşıq sevinc, bir az da duzlu iztirab
Beyində bir alay fikir, bir az da intizam ola.
Sonuncu sevgi boylana otağına qonaq kimi,
Fəqət yarımçıq olmaya, kiçik də olsa tam ola…
Gözəlliyin yanında çox ağıl, fikir gərəkmidir?
Yetər bir az deyib-gülən, bir az şirinkəlam ola.
Ağıl, fikir beyində yük, silib ataq, yerinə kaş
Mənə bir az ümid gələ, sənə bir az inam ola.
Min ildi elmi-fəlsəfə cavab gəzir suallara,
Cavabsa xeyli sadədi, - Adam gərək adam ola.

### …bəlkə də tənbəllik….

Yağardı ağ yağışlar, adam çaşıb qalardı,
Bir az nəfəs verərdi, bir az həvəs alardı…
Ümid var idi məndə, bulud tək intəhasız.
Külək alıb apardı. adam gedib tapardı.
Dadın da bilmədim heç gözündəki o yaşın
Soyuq-soyuq axardı, adam içib baxardı…
Vəfa qapısı üçün, həqiqi canfədalıq
Dəyişməyən açardı, adam açıb qaçardı.
Gələrdi kaş ki dövrün, həqiqi Kərbəlası.
Yolun, izin bilərdi, adam gedib ölərdi.
...bir az ölüb... gələrdi.

* * *

Sən mənim ömrümdə əsən bir külək,
Sən mənim ağzımda qalan dad kimi…
Sən mənim ağ kölgəmə yatmış mələk
Sən mənə həm doğma kimi, yad kimi…

Sən mənə can bəxş eləyən bir nəfəs,
Sən dilin altda əriyən həb kimi…
Sən mənim hər bir sözümün cizgisi,
Sən kağız üstündə mürəkkəb kimi…

Sən ki, günəşsiz soyuyan bir üfüq,
Sən məni məndən ayıran xət kimi,
Sən mənə əlçatmaz uzaq bir vətən,
Sən mənə dost-doğmaca qürbət kimi.

Sən gözümün yaşının hər damlası,
Sən suya dön, get, əriyən qar kimi.
Sən beləsən …., ömrü boyu seyrdə…
Ağlama qarşımda günahkar kimi.
dön suya, ax, get, əriyən qar kimi.

* * *

Unut məni, yubanma,
Çıxıb gedim yanından,
Əsər də qalmasın qoy
Bu sevginin dadından.

Unut məni səhərlər,
Üfüq işıldayanda,
Yavaşca pəncərəndə
Budaq xışıldayanda.

Unut məni günorta,
Külək günü əyəndə,
Divanda halsız-halsız
Kitab vərəqləyəndə.

Unut məni hər axşam,
Sızıltıdan bezəndə,
Durub gedib ərinçün
Mixəkli çay süzəndə…

Unut məni dünən də,
Unut məni bu gün də…
Unut məni, unut, tam.
Səhər… Günorta… Axşam…

* * *

Bir söz de mənə, ey gözü yaşlım, nəsə bir söz,
Qəlbimdən axan qanımı bəlkə kəsə bir söz.

Dondurma məni, istəmirəm ruhum içində
Hər gün üşüyüb titrəyə bir söz, əsə bir söz.

Bezdirdi sükut, döy ürəyin pəncərəsin ki,
Taqqıltı eşitcək çıxa bəlkə səsə bir söz.

Susma, de o bir kəlmə sözü, qoy gecə yarı
Titrək bir işıq tək başım üstə əsə bir söz.

"Gəl" söylədilər ruha, gəlib girdi bu cismə,
Yoxdur geri yol, saldı onu məhbəsə bir söz.

Sən Fəhmini susmaqda gunahkarmı sanırsan?
Səndən nə qəbahətdi əgər gözləsə bir söz.

* * *

Mən səni ağlatmaq üçün gəlmədim,
Göz yaşını silmək üçün gəlmişəm.
Qəlbini ovcumda tutub hər səhər
Göylərə yüksəlmək üçün gəlmişəm.

Min günah içrə boğulan qəlbinə
Bir də nəfəs vermək üçün gəlmişəm,
Bu qatı zülmətdə xilas yollarım
Mən qapına sərmək üçün gəlmişəm.

Ruhunu tutmuş bu qara pərdənin
Rəngini soldurmaq üçün gəlmişəm.
Bəsdi daha, taleyə diz çökmə, QALX…
Mən səni qaldırmaq üçün gəlmişəm.

### Harda unutdum

Səhərdən axtarıb gəzirəm,amma
Heç yerdən ətrini ala bilmirəm,
Mən sənin sevgini hara qoymuşam?
Heç cürə yadıma sala bilmirəm.

Fikrim dağılıbdı axır zamanlar,
Sanki gözə gəlib yaddaşım, huşum.
Yəqin keçən həftə bilər yerini,
Ya da keçən aydan səni soruşum.

Unudub qoymuşam bəlkə sevgini
Otelin soyumuş pəncərəsində,
Fikir verməmişəm, yaddan çıxıbdı
Üzümə örtülən qapı səsində,
Gizli görüşlərin bəhanəsində.

Bəlkə yollar oldu məni çaşdıran?
Qatar oğurladı itən sevgimi.
Tələsik düşəndə kupedə qoydum
Oxunub qurtarmış bir kitab kimi?

Mən səni görəsən harda unutdum?
Yağışda itirdim, qarda unutdum?

Nəsə, həyatdı da. Mən bu yaşıma
Kimlərdən, nələrdən doyub gəlmişəm.
Təkcə səni deyil, mən özümü də
Sənli günlərimdə qoyub gəlmişəm.

* * *

Dünya qəmini, vaxt ola, çiynimdən atardım,
Getsəydi, bu dünyanı beş-on şerə satardım,
Dünyanı beş-on şerə satardım
və yatardım.

Səndən qaça bilsəydim əgər, sənsiz həyatı
Əvvəl acı dərman kimi ehmalla dadardım,
Dərman kimi ehmalla dadardım
və udardım.

Bir qırmızı paltarlı qadınçün gecə yarı
Bir qırmızı yanğıyla yuxumdan oyanardım.
Yanğıyla yuxumdan oyanardım
və yanardım.

Son dəfə mənimçün gözünün yaşı axardı,
Göz yaşını son dəfə öpüşlərlə silərdim,
Son dəfə öpüşlərlə silərdim
və ölərdim.

Bir gün səni də yadlara xoşluqla verib mən
Sonra durub ardınca xəcalətlə baxardım,
Ardınca xəcalətlə baxardım
və baxardım.

* * *

Tökülür sənli saatlar o ömürdən, bu ömürdən,
Əyilib qaldıran olmur onu yerdən, bunu yerdən,

Evimə dərd girir hər gün, o başından, bu başından,
Gözümə kölgə salırsan, o maşından, bu maşından.

Səni sakitcə soruşdum o yağışdan, bu yağışdan,
Saçının ətrini aldım o balışdan, bu balışdan.

Süzülür sel kimi yaşlar o gözündən, bu gözündən,
Səni hicran öpür hər gün o üzündən, bu üzündən.

Bezmişəm sənsiz həyatın o adından, bu adından,
Zərrə-zərrə səni yığdım o qadından, bu qadından.

Tökülür sənli saatlar o ömürdən, bu ömürdən,
Əyilib qaldıran olmur onu yerdən, bunu yerdən…

